

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 248 (21.658)

*28 dekabr 2016-cı il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, hökumətlərarası birgə komissiyanın həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

2016-cı ilin Azərbaycan-İran əlaqələrinin tarixində xüsusi yer tutduğunu vurğulayan dövlətimizin başçısı bu il ərzində baş tutan görüşlərə toxunaraq İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə çox səmərəli görüşün keçirildiyini məmnunluqla xatırlayıb. Prezident İlham Əliyev ölkələrimiz arasında bu il həmçinin önəmli sənədlərin imzalandığını və onların artıq icra edildiyini deyib. 2017-ci ilin də uğurlu olacağına, ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənəcəyinə və mühüm əhəmiyyət daşıyan layihələrin icra olunacağına əminliyini ifadə edən dövlətimizin başçısı əlaqələrimizin genişləndirilməsində hökumətlərarası birgə komissiyanın fəaliyyətini xüsusi qeyd edib. Dekabrın 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının ilk reysinin yola salınacağını əlamətdar hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev dəmir yolunun fəaliyyətinə uğurlar arzulayıb.

İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi ad günü münasibətilə dövlətimizin başçısını təbrik edib. O, eyni zamanda, Yeni il bayramı münasibətilə də Prezident İlham Əliyevə və Azərbaycan xalqına xoş arzularını çatdırıb. Mahmud Vaezi ona İran Prezidentinin hökumətlərarası birgə komissiyanın iclası çərçivəsində Prezident İlham Əliyevin tövsiyələrinin yerinə yetirilməsi və 2017-ci ildə ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı yol xəritəsinin hazırlanmasına dair tapşırıqlar verdiyini bildirib.

Söhbət zamanı Naxçıvanda keçiriləcək Azərbaycan-İran biznes-forumunun önəmi vurğulanaraq forumun ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olmuşdur

Dekabrın 27-də – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikası medallarının, “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”nun, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Azərbaycan 25 ildir müstəqil dövlətdir. Ötən dövrdə Azərbaycan müstəqil ölkə kimi dünya dövlətləri sırasında öz layiqli yerini tutmuş, hərtərəfli inkişaf etmişdir. Bu inkişafın əldə olunmasında dövlət-xalq birliyinin mühüm rolu vardır. Çünki dövlətin inkişafını təmin edən onun vətəndaşlarıdır. Ölkəmizin inkişafında fərqlənən insanların əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilir. Bu gün dövlət mükafatları təqdim olunanlar da uzun illər müxtəlif sahələrdə çalışan, öz işi ilə fərqlənən və əməyi qiymətləndirilən insanlardır.

Ali Məclisin Sədri ölkəmizin inkişafındakı xidmətlərə görə təltif olunanlara təşəkkür edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə sabitlik və inkişaf təmin edilmiş, dövlət müstəqilliyimiz qorunub saxlanmışdır. Ötən dövrdə ölkə Prezidenti tərəfindən həyata keçirilən tədbirlər Azərbaycanı daha da irəliyə aparmışdır. Artıq Azərbaycan təsdiq etmişdir ki, müstəqil yaşayan ölkədir. Bütün bunlar ölkəmizdə həyata keçirilən düzgün siyasətin, eləcə də dövlət-xalq birliyinin və insanların zəhmətinin nəticəsində mümkün olmuşdur.

Ali Məclisin Sədri təltif olunanları və onların timsalında bütün muxtar respublika əhalisini qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri medalların və “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”nun, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan Ədalət Əliyev, Ədalət Hüseynov, Bəhruz Bayramov, Vasif Məmmədov, Əbülfəz Dünyamalıyev, Adilə Səfərova, Aybəniz Sadiqova, Elbrus Qocayev, Üzeyir Əliyev, Ərəstun Hüseynov, Razim Vəliyev, Mirtaleh Seyidov və Zülfiyyə Seyidova minnətdarlıq edərək demişlər ki, bu gün ölkəmizdə insanlar rahat yaşayır, davamlı inkişaf və sabitlik vardır. Təltif olunanlar bildirmişlər ki, dövlət mükafatları ilə təltif olunmaları onların qarşısında mühüm vəzifələr qoyur, məsuliyyətlərini daha da artırır. Ona görə də göstərilən etimadı doğruldaraq bundan sonra da səylə çalışacaq, müstəqil Azərbaycanın inkişafına töhfələrini verəcəklər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş konfrans keçirilib

***Naxçıvan Dövlət Universitetində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş konfrans keçirilib.***

Konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq XX yüzilliyin 90-cı illərinin əvvəllərində Azərbaycançılıq və milli həmrəylik ideyalarının daha geniş vüsət aldığını, Naxçıvanda baş verən hadisələrlə müstəqillik uğrunda şərəfli mübarizənin təməlinin qoyulduğunu, xalqın mütəşəkkillik, milli əqidə və bütövlük nümayiş etdirdiyini xatırladıb. Saleh Məhərrəmov ümummilli lider Heydər Əliyevin xalqımızın milli birlik əldə etməsində, Azərbaycan diasporunun müstəqil Azərbaycan dövlətinin siyasətinin, milli maraqlarımızın müdafiəsi məqsədilə birləşməsi və koordinasiyasında misilsiz xidmətləri olduğunu vurğulayıb.



Konfransda Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, dosent Şamil Mahmudovun “31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü”, Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, dosent Asəf Əliyevin “Milli birlik və Azərbaycançılıq ideyaları bu gün uğurla davam etdirilir”, universitetin Tələbə-Gənclər Təşkilatının sədri, Ümumi tarix kafedrasının müəllimi Arzu Abdullayevin “Həmrəyliyimiz birliyimizdir” mövzusunda məruzələri dinlənilib. Məruzələrdə xalqımızın milli müstəqillik və həmrəylik uğrunda keçdiyi şərəfli mübarizə yolundan, dahi şəxsiyyət Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi 1991-ci il dekabrın 16-da 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması ilə bağlı imzaladığı qərarın tarixi əhəmiyyətindən, ümummilli liderin Vətən sevgisindən, Azərbaycanı dünyada təbliğ etmək, xaricdə yaşayan soydaşlarımızın tarixi vətənləri ilə sıx əlaqə qurması istiqamətində gördüyü işlərdən, bu məqsədyönlü siyasətin bugünkü uğurlu davamından bəhs olunub.

Sonra Dünya Azərbaycanlılarının Həmrəylik Gününün xronikasını əks etdirən tarixi kadrlar, Azərbaycanın və dünyanın müxtəlif universitetlərində təhsil alan tələbələrin bayram təbriklərindən ibarət videoçarx izlənilib.

**Mehriban SULTAN**

# İnkişafa nail olmağın və onu qorumağın əsas şərti: *nizam-intizam*



Budəfəki məqaləmə iki Tusinin sözləri ilə başlayacağam. Onlardan birincisi böyük Səlcuqlu sultanları Alparslan və Məlikşahın vəziri olmuş, Nizamülmülk adı ilə tanınmış Həsən ət-Tusi, digəri isə qüdrətli Elxanilər dövlətinin qurucusu Hülakü xanın vəziri olmuş, Nəsirəddin Tusi kimi tanıdığımız Məhəmməd ət-Tusidir. Adıçəkilən hər iki şəxs öz dövrünün hökmdarlarına ən yaxın köməkçi olmuş, Nizamülmülk "Siyasətnamə"ni, Nəsirəddin Tusi isə "Əxlaqi-Nasiri"ni yazmaqla təkcə öz dövrləri üçün yox, bütün dövrlər üçün aktual olan idarəçilik prinsiplərindən bəhs etmişlər. Hər iki mütəfəkkirin əsərlərində isə hər bir dövlətin inkişafı, tərəqqisi üçün önəmli olan bir məqam var: nizam-intizam. Bu barədə Nizamülmülk "Siyasətnamə"nin 41-ci fəslində yazır: "Adil və sayıq hakimlər öyrənmədən, götür-qoy etmədən heç bir iş görməzlər, sələflərin adət-ənənələrini soruşar, kitablar oxuyar, işləri öz nizam-intizamı ilə aparmağı əmr edərlər..." Nəsirəddin Tusi isə "Əxlaqi-Nasiri"nin "Əflatunun vəsiyyətləri haqqında" adlanan səkkizinci fəslində işlərə nizam-intizamlı münasibəti belə ifadə edir: "Heç bir işə vaxtı çatmamış başlama. Bir işə girişəndə onu ağıllı-başlı, şüurlu şəkildə, namus, vicdanla yerinə yetir".

Bəli, doğrudan da, mükəmməl və müdrik fikirlərdir. İnkişaf və tərəqqi üçün nizam-intizam əsas şərtdir.

Naxçıvan Muxtar Respublikasının müasir dövr tarixinə nəzər salsaq görərik ki, Naxçıvanın inkişafı, tərəqqisi və intibahına da məhz işə nizam-intizamlı yanaşma nəticəsində nail olunmuşdur. Ağac və kolların oduncaq kimi yandırıldığı Naxçıvandan minlərlə hektar yaşıllıqlara sahib olan Naxçıvana, dəmir çarpayıların elektrik xətlərinə qoşularaq evlərin qızdırıldığı Naxçıvandan bütün binaları qazanxanalarla təchiz olunmuş Naxçıvana qədərki yol da məhz yuxarıda sadaydığımız xüsusiyyətlər hesabına şərəflə keçilmişdir.

Mən Naxçıvanın o günlərini görməmişəm. Lakin Naxçıvanın o günlərini görmüş üç nəfərin danışdığı üç müxtəlif epizod əbədi olaraq yaddaşıma həkk olunub.

Birinci epizodu çox dəyər verdiyim müəllimlərimdən biri danışmışdı. Deyir ki, o zaman hələ məktəbli idim. Ailədə üç qardaş idik və hər gün səhər birimiz çörək almağa gedirdik. Bir qarlı qış günü də növbə mənə düşmüşdü. Səhərin sübhündə atamın aldığı təzə dəri-əvəzləyici materialdan olan gödəkçəmi sevinə-sevinə geyinib çörək növbəsinə getdim. Uzun insan selinin arasından birtəhər keçib bişirdiyi çörəkləri sobadan yenicə çıxarmış çörəkçiyə yaxınlaşdım, bircə isti çörəyi zor-bəla ilə aldım və əlim yanmasın deyə yeni gödəkçəmlə tutub evə tərəf getdim. Çörəyin sevinci məni elə bürümüşdü ki, evə çatana qədər isti çörəyin yeni gödəkçəmi hansı vəziyyətə saldığının fərqində olmamışdım. O gün ərimiş gödəkçənin çörəyə yapışan hissələrini təmizləyib çörəyi birtəhər yemişdik. İndi həmin müəllimim ailə başçısıdır. Bir oğlu və bir qızı var. Bu balacalar çörək növbəsinin nə olduğunu bilmirlər. Onlar yalnız bir növbə bilirlər, o da avtobusa minərkən böyüklərə və yaşlılara yol vermək növbəsidir.

İkinci epizodu indi dövlət məmuru olan bir dostumuz danışmışdı. Deyirdi ki, xalamgillə biz yaxınlıqda yerləşən binalarda qalırdıq. İşıqlar iki saatdan bir növbə ilə verilirdi. Qaz olmadığına görə məcburi surətdə elektrik naqillərini çarpayı dəmirlərinə qoşmaqla "elektrik soba"sı vasitəsilə evi qızdırırdıq. 30-35 dərəcə şaxtanın olduğu o illərdə hər dəfə bizim binada işıq sönəndə bacımla əl-ələ tutub xalamgilə qədər birnəfəsə qaçırdıq. Dəfələrlə yıxılıb əl-ayağımızı əzmişdik. Hər kəsin bir tikə çörəyi zorla qazandığı o zamanda valideynlərimiz hər dəfə xalamgilə getməyə utanırdı. Özləri birtəhər evdə soyuqda dözür, bizə isə xalama "yemək yemişik" deməyi tapşırırdılar.

Üçüncü epizodu isə mənə müsahibələrimizin birində o zamanlar Naxçıvana elmi-tədqiqat üçün gələn türkiyəli tarixçi İbrahim Ethem Atnur danışıb. O deyirdi: "Ötən əsrin 90-cı illərinin əvvəllərində Türkiyə ilə Naxçıvan arasında bir körpü açıldı. 1992-ci ilin 28 mayında istifadəyə verilən Sədərək-Dilucu körpüsü bizi qardaşlarımızla qovuşdurdu. Mən də dərhal Naxçıvana gəldim. İnanın, o vaxt Naxçıvanda qalanda çox çətinliklərlə qarşılaşdım. İndi bu qarşı tərəfdə gördüyümüz yaraşıqlı "Təbriz" mehmanxanası o vaxt bərbad vəziyyətdə idi. İnsanlar ağacları kəsib evlərinə aparırdılar. Çünki yanacaq yox idi. İndi gözəl bir yaşayış məntəqəsinə çevrilmiş Sədərək o zaman ermənilər tərəfindən bombalanmışdı. Ordubadda, Batabat istiqamətində müharibə gedirdi. Lakin naxçıvanlılar bütün məhrumiyyətlərə baxmayaraq, düşmən qarşısında dirəniş göstərirdilər. Düşmən qarşısında əyilməyən naxçıvanlıların hələ o zaman dost qarşısında necə istiqanlı və səmimi olduqlarını gördüm. O çətin vaxtlarda insanlar mənə çox kömək etdilər".

Bəli, Vətənin ağır günlərində insanların keçib gedəcək məhrumiyyətlərə səbirli, gördükləri işlərə vicdanlı yanaşması və ən əsası muxtar respublikada məmurundan vətəndaşına qədər hər kəsdən eyni qaydada nizam-intizam tələb edilməsi bu yurdu o gündən bu günə gətirdi. Ən əsası isə bu yanaşma heç zaman səngimədi, əksinə daha da gücləndi, möhkəmləndi. Bu mənada, hələ 2009-cu ilin Naxçıvan Muxtar Respublikasında "Nizam-intizam ili" elan olunması bu yanaşmanın daha da gücləndirilməsi istiqamətində növbəti addımlardan biri olmuşdur. O zaman işdə məsuliyyət hissinin daha da artırılması, yol verilmiş nöqsanların bir daha təkrarlanmaması istiqamətində əməli işlər həyata keçirilmişdir.

Artıq başa vurmaqda olduğumuz 2016-cı il isə "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 2015-ci ildəki fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı iclasında bu barədə demişdi: ***"Bu gün sürətlə inkişaf edən, düşmən sərhədində alınmaz qalaya çevrilmiş Naxçıvan Muxtar Respublikası məhz güclü nizam-intizamın nəticəsində bu səviyyəyə yüksəlib. Sürətli inkişaf templərini qoruyub saxlamaq üçün nizam-intizama əməl etmək, onun möhkəmlənməsinə çalışmaq zəruridir".***

Ötən bir il ərzində keçilən yola, reallaşdırılan tədbirlərə diqqət yetirsək görərik ki, nizam-intizamın daha da möhkəmləndirilməsi, yol verilən nöqsanların aradan qaldırılması üçün cəmiyyət həyatının müxtəlif sahələrində gedən proseslərin geniş təhlilləri aparılmış, əldə edilmiş nizamlı inkişaf xəttinin daha da möhkəmləndirilməsi üçün əməli tədbirlər həyata keçirilmiş, tapşırıq və tövsiyələr verilmişdir.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qeyd etdiyi kimi:* ***"Hər bir uğurun arxasında insan əməyi və nizam-intizam dayanır. Muxtar respublikamızda 2016-cı ilin "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunması isə məsuliyyət hissini daha da artırmış, qəbul edilmiş dövlət proqramları vaxtında icra olunmuş, nəzərdə tutulmuş tədbirlərin, infrastruktur layihələrinin reallaşdırılması təmin edilmiş, sosial-iqtisadi həyatın bütün istiqamətləri üzrə müsbət dinamika qorunub saxlanılmışdır".***

**Elnur KƏLBİZADƏ**

# *"Nehrəm-Aqro"* istixana kompleksi daxili bazarın yerli məhsullarla təminatına öz töhfəsini verir

***Avtomobilimiz Naxçıvan-Culfa magistral yolundan ayrılıb Babək rayonunun Nehrəm kəndinə üz tutur. Ətrafa diqqət kəsilirik. Qar yorğanına bürünmüş, yazın nəfəsini həsrətlə gözləyən ucsuz-bucaqsız torpaqlar… Amma bu şaxtalı, qarlı günlərdə qapısını açıb daxil olduğumuz ünvan adama yaz nəfəsi, bahar ətri bəxş edir. Düşünürəm ki, insan əli boz tikanı istəsə gülə döndərər, – deyən şairin qənaəti çox düzdür. Təki torpağa məhəbbət, zəhmətə sevgi olsun. Ata-babalardan qanımıza hopdurulan bu hisslərsə bu gün daha da güclənib, torpağa məhəbbət artıb. Çünki zəhmət adamı layiq olduğu qayğı və dəyəri görür. Elə Nehrəm kəndində yaradılan, Nehrəm-Çeşməbasar yolu üzərində yerləşən "Nehrəm-Aqro" istixana kompleksi də bu qayğının bəhrəsidir.***



Burada çoxlarımızın da bildiyi bir məsələni qeyd etmək istəyirəm ki, son illər aqrar sahədə xeyli uğurlar əldə edilib, sahibkarlığın inkişaf etdirilməsi üçün münbit şərait yaradılıb. Aqrar sahədə müasir texnologiyanın tətbiqi ilə yanaşı, keyfiyyət amili ön planda saxlanılır. 2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, 2012-2015-ci illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası və 2016-2020-ci illər üçün meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı yeni proqramın qəbul edilməsi kənd təsərrüfatının dinamik inkişafına təkan verib, ərzaq təhlükəsizliyinin təmin olunmasına şərait yaradıb.

Məhz keyfiyyət amilinin diqqətdə saxlanılmasının nəticəsidir ki, bu gün, bəlkə də, dünyanın ən dadlı kənd təsərrüfatı məhsulları Naxçıvanda yetişir. Bunu təkcə biz demirik, ölkəmizin müxtəlif regionlarından Naxçıvana gələnlər, hətta əcnəbilər belə təsdiq edirlər. Və əlbəttə ki, dadlı-tamlı məhsulların yetişdirilməsində, muxtar respublika iqtisadiyyatının uğurlu inkişafında hər bir bölgənin, hər bir rayonun öz payı var. Eləcə də nehrəmli təsərrüfatçıların. Çünki münbit torpağı, bol su mənbələri hesabına burada hər il bol və keyfiyyətli məhsul yetişdirilir.

Adıçəkilən təsərrüfatın rəhbəri Nağı Nağıyevdir. O, 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən verilən 160 min manat güzəştli kredit və öz imkanları hesabına belə bir təsərrüfat yaradıb. Kompleks müasir texnologiyalar əsasında qurulub, tam avtomatlaşdırılmış iqlim yoxlama sistemləri, istilik-mühafizə pərdələri, havalandırma və suvarma avadanlıqları ilə təchiz edilib və 2013-cü ildən burada müxtəlif tərəvəz məhsullarının yetişdirilməsinə başlanılıb. Təsərrüfatdan gələn gəlir hesabına güzəştli kredit vaxtından əvvəl ödənilib.

Sahibkar deyir ki, fəaliyyətə başlayarkən burada 6 ədəd istixana yaradıblar. Cari ildə isə daha bir istixana tikilib. İstixanalarda, əsasən, yerli pomidor və xiyar məhsulları yetişdirilir. Yay aylarında torpağa aqrotexniki qulluq göstərilir və avqust ayında əkinə başlanılır. Noyabr ayının sonuna isə məhsullar yetişib hasilə gəlir. Amma əkin davam edir. Yanvarın sonunda da əkin aparılacaq ki, ardıcıl olaraq satış həyata keçirilsin.

Məhsullar dadı-tamı ilə vaxtilə bazarlarımızda hegemonluq edən idxal məhsullardan tamamilə fərqlənir. Nehrəm kimi böyük bir kənddə tərəvəzçilikdə qazanılan təcrübə də kollektivin yüksək nəticələr qazanmasında mühüm rol oynayır. Burada yetişdirilən tərəvəz bitkilərinə aqrotexniki qulluq zamanı yalnız təbii gübrələrdən istifadə olunur. Məhsulun toplanması, qablaşdırılması lazımi qaydalara uyğun olaraq aparılır. Torpaq mülkiyyətçisi bildirir ki, ötən il 67 ton pomidor, 22 ton xiyar yığılaraq satışa göndərilib. Tədarük olunan məhsulun satışı necə həyata keçirilir? – sualımıza isə sahibkar cavab verir ki, hazırda burada yetişdirilən məhsullar, əsasən, Naxçıvan şəhərindəki bazarlarda satılır. Çox vaxt da gəlib elə təsərrüfatın özündən alırlar.

*Bəli, bu gün muxtar respublikamızda kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən hərtərəfli dövlət dəstəyi hesabına belə istixanaların sayı ildən-ilə artır. "Nehrəm-Aqro" istixana kompleksi də məhz bu dəstəyin nəticəsi kimi bu gün muxtar respublikamızda əhalinin yerli tərəvəz məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır.*

**Hafizə ƏLİYEVA**

***Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən işlər arasında kənd təsərrüfatının inkişafı prioritet məsələ kimi diqqətdə saxlanılır. Cari ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının və kənd təsərrüfatı sahəsinin inkişafına dair son məlumatlarda bu qənaətə gəlmək mümkündür.***

# Kənd təsərrüfatı məhsulu istehsalı artıb

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən verilmiş məlumatda qeyd olunur ki, cari ilin yanvar-noyabr aylarında muxtar respublikada 2 milyard 251 milyon 910 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunub. Bunun da 369 milyon 626 min 500 manatı kənd təsərrüfatı məhsulu olub. Bu dövrdə istehsal olunmuş kənd təsərrüfatı məhsulu 2015-ci ilin müvafiq dövründəki göstəricidən 6 faiz çoxdur.

2016-cı ildə muxtar respublikada strateji əhəmiyyətli kənd təsərrüfatı məhsulu – taxıla olan tələbatın yerli imkanlar hesabına ödənilməsi üçün ciddi addımlar atılıb. Cari ildə 31 min 579 hektar sahədən 94 min 117 min ton taxıl tədarük olunub. Növbəti 2017-ci ilin məhsulu üçün isə 17 min 465 hektar sahədə buğda, 5 min 35 hektar sahədə arpa olmaqla, ümumilikdə, 22 min 500 hektar sahədə payızlıq taxıl əkini həyata keçirilib.

Aqrar sektorda heyvandarlıq məhsulları istehsalı və emalı da diqqətdə saxlanılıb. Belə ki, qeyd olunan dövrdə muxtar respublika üzrə diri çəkidə 21,7 min ton ət, 78,2 min ton süd istehsal edilib ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı üzrə 1,9 faiz, süd istehsalı üzrə 1,3 faiz artım deməkdir.

Göründüyü kimi, muxtar respublika iqtisadiyyatı yeni iqtisadi şəraitdə öz dinamikliyini qoruyub saxlamış, iqtisadiyyatın qeyri-neft sahələri arasında prioritet sahələrdən biri olan kənd təsərrüfatında artım təmin olunmuşdur.

**Xəbərlər şöbəsi**

## Muxtar respublikanın ictimai həyatında fərqlənən yeniyetmə və gənclər mükafatlandırılıblar

***Naxçıvan şəhərindəki “Duzdağ” otelində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılma mərasimi olub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə aparıcılar muxtar respublika əhalisinin 30 faizdən çox hissəsinin gənclər olduğunu vurğulayıblar. Qeyd edilib ki, bu gün qədim diyarda aparılan siyasət nəticəsində gənclərin dövlət idarəetmə orqanlarına, o cümlədən cəmiyyətin bütün aparıcı sahələrinə inteqrasiyası diqqət mərkəzindədir.



Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov çıxışında bu il də muxtar respublikamızda idman və gənclərlə iş sahələrində həyata keçirilən tədbirlərdən danışıb, əldə olunan nailiyyətlərdən bəhs edib. Bildirib ki, tezliklə daha bir təqvim ili tarixin əlamətdar səhifələrindən birinə çevriləcək. Sevindirici haldır ki, yola saldığımız 2016-cı il də respublikamız üçün çox uğurlu il kimi qiymətləndirmək olar. Məhz bu ildə də ölkəmiz həm ictimai-siyasi, həm də sosial-iqtisadi sahələrdə əldə etdiyi nailiyyətlərlə dünya ölkələri sırasındakı mövqeyini daha da möhkəmləndirib.

Azad Cabbarov qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunan bu tarix dünya azərbaycanlılarını Azərbaycan Respublikasının ictimai-siyasi maraqları ilə bir olmağa, həmrəyliyə çağırış bayramıdır. Bu bayram ildən-ilə daha geniş vüsət taparaq ürəklərdə Vətən eşqi, milli və mənəvi birlik, həmrəylik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən qeyd olunur.

“Naxçıvanda da bu bayram geniş şəkildə qeyd edilir, bu gün münasibətilə bayram tədbirləri təşkil olunur, muxtar respublikanın ictimai-siyasi həyatında yaxından iştirak edən gənclərimizin fəaliyyəti dövlətimiz tərəfindən mükafatlandırılır”, – deyən gənclər və idman naziri tədbir iştirakçılarını 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra gənclərlə iş dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib, gənclərin hərtərəfli inkişafı sahəsində ardıcıl tədbirlər görülüb. Müasir dövrdə isə bir tərəfdən Naxçıvanın qədim tarixi tədqiq edilir, abidələri bərpa olunursa, digər tərəfdən bu mənəvi sərvətlərə, milli dəyərlərə sahib çıxacaq gənclər formalaşdırılır.





Vurğulanıb ki, dövlət gənclər siyasəti bu gün Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Son illər gənclərimizin muxtar respublikamızın həyatında fəal iştirakı, gənc istedadların dövlət qayğısı ilə əhatə olunması gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlərin tərkib hissəsidir. Muxtar respublikada gənclərin yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği daim diqqət mərkəzindədir.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu bu ilin ötən dövrü ərzində həyata keçirilən layihələrdə gənclərin intellektual inkişafı, onların asudə vaxtlarının səmərəli təşkil olunması və müxtəlif layihələrdə birgə iştiraklarını ön plana çəkib, aidiyyəti qurumlarla birlikdə bir sıra tədbirlər həyata keçirib”, – deyən Məmməd Babayev qeyd edib ki, muxtar respublikanın şəhər və rayonlarında vətənpərvərlik mövzusunda teatr tamaşalarının təşkili və gənclərin bu tamaşalara cəlb olunması məqsədilə bütün rayon mərkəzlərində Naxçıvan teatrının tamaşaları təşkil olunub. Keçirilən tədbirlərdə gənclərin intellektual inkişafı daim diqqət mərkəzində saxlanılıb, müntəzəm olaraq intellektual oyunların keçirilməsi təmin edilib. Əsgərlərdə ruh yüksəkliyinin artırılması, gənclərə vətənpərvərlik hissinin aşılanması, çağırışyaşlı gənclərin hərbi xidmətə hazırlanması və onların Vətənə sevgi, dövlətə sədaqət ruhunda tərbiyə olunması məsələsi də diqqət mərkəzində saxlanılıb. Gənclərlə əsgərlərin görüşləri keçirilib, hərbi hissələrdə konsert proqramları və teatr tamaşaları təşkil edilib.

Qeyd olunub ki, bu il Gənclər Fondu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu ilə birlikdə “Naxçıvan: dünən və bu gün” mövzusunda yaradıcılıq müsabiqəsi elan edib. Publisistika və teleradio materialları, rəsm əsərləri, ədəbi nümunələr, musiqi əsərləri və elmi-tədqiqat işləri kateqoriyalarında keçirilən yaradıcılıq müsabiqəsi noyabrın 30-na qədər davam edib. Qaliblər dekabrın 16-da keçirilən tədbirdə mükafatlandırılıblar. Bu ilin ötən dövrü ərzində keçirilən müxtəlif layihələrdə, yaradıcılıq müsabiqələrində və bilik yarışlarında muxtar respublika üzrə 8 minə yaxın gənc iştirak edib, 400-ə yaxın gənc isə mükafatlandırılıb. Hər il olduğu kimi, bu il də yay tətili müddətində gənclərin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə Ağbulaq İstirahət Mərkəzində yay məktəbi təşkil olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Gənclər Fondu, Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan gənclərin Ağbulaq İstirahət Mərkəzində yay məktəbini keçirib, məktəblilərin həftəsonu istirahətləri təşkil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru bundan sonra da gənclərə yönəldilmiş layihələrin diqqətdə saxlanılacağını bildirib, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir iştirakçılarını təbrik edib, onlara uğurlar arzulayıb.

Gənclər adından çıxış edən Naxçıvan Dövlət Universitetinin tələbəsi Aysu Məmmədova ölkəmizdə, eləcə də muxtar respublikada gənclərə göstərilən diqqət və qayğıdan danışıb. Gənclər adından muxtar respublika rəhbərinə minnətdarlığını ifadə edən Aysu Məmmədova naxçıvanlı gənclərin bundan sonra da davamlı inkişafımız naminə yorulmadan çalışacaqlarını bildirib.

Tədbirin simvolu sayılan tortu kəsmək üçün Yeni ilin simvolu olan Şaxta baba və Qar qız, həmçinin gənclər səhnəyə dəvət olunublar.

Sonra Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Bayram tədbiri musiqi və rəqs nömrələri ilə davam edib.

Naxçıvan Musiqi Kollecinin “Gənclik” instrumental ansamblının ifasında mahnılar səsləndirilib. Naxçıvan Dövlət Filarmoniyasının və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəqs qruplarının çıxışları olub. Ölkəmizin, o cümlədən muxtar respublikamızın tanınmış müğənnilərinin ifasında səsləndirilən musiqi nömrələri tədbir iştirakçılarında xoş ovqat yaradıb. Azərbaycan Respublikasının Əməkdar artisti İlkin Əhmədovun və Gülay Zeynalovanın ifaları alqışlarla qarşılanıb.

Tədbir çay süfrəsi ətrafında davam edib.

**Rauf ƏLİYEV**

## Nəşr olunan yeni monoqrafiyalar maraqla qarşılanıb






***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” və “Kitabi-Dədə Qorqud” və Naxçıvan:qarşılaşdırmalı etnoqrafik motivlər” adlı monoqrafiyaları milli və mənəvi kimliyimizə dair uzun illər ərzində aparılmış tədqiqatların nəticəsi olmaqla ciddi elmi və eyni zamanda praktik əhəmiyyətə malikdir.***

Bu fikri bölmədə yeni monoqrafiyaların təqdimat mərasimində AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev səsləndirib. Heç də təsadüfi deyildir ki, kitabların nəşrindən qısa müddət ötməsinə baxmayaraq, əsərlər maraqla qarşılanıb. Xüsusən “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı” adlı monoqrafiyanın ciddi əhəmiyyəti nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyəsi ilə bu əsər “Naxçıvan” Universitetinin Elmi Şurasında Dinşünaslıq ixtisası tələbələri üçün dərslik kimi təsdiq olunub.

Nəşr edilən yeni monoqrafiyalar haqqında geniş məruzə edən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev vurğulayıb ki, hər iki monoqrafiya tariximizin öyrənilməsi üçün mühüm vasitədir. Əgər birinci monoqrafiyada mənəvi mədəniyyətimizin müxtəlif aspektlərindən bəhs olunursa, “Kitabi-Dədə Qorqud” və Naxçıvan:qarşılaşdırmalı etnoqrafik motivlər” adlı monoqrafiyada Naxçıvanın qədim oğuz-türk yurdu olduğu, türk mədəniyyətinin beşiklərindən biri sayıldığı dastanın verdiyi faktlar əsasında sübut olunur.

Diqqətə çatdırılıb ki, “Dünya və insan – baxışlar, düşüncələr”, “Dünya insanla dünyadır, dünyada ayrıca dünyadı insan”, “Qurani-Kərim”də dünya və insan”, “Şeyx Nizami və dünya”, “Nəsimi və dünya”, “Ruh dünyasından seçmələr”, “Mən və dünya”, “Qərib kimdir, qəribçilik nədir?”, “Qərib yolçu, yolda nələr gördün, kimlərlə qarşılaşdın?”, “Qərib yolçunun neylə söhbəti”, “İnsan dünya münasibətlərinin üç qayəsi”, “İnsan nəfsi və dünya”, “Dünya və axirət qazanmaqda səbir, riza və təvəkkülün fəziləti”, “Dünya, su, insan və mədəniyyətlər”, “Mən dərddən doğuldum, dərd məndədi, dərd mənəm”, “İnsanın özünü və ətraf aləmi dərki: təhsil və elm”, “Paklıq və halallıq dünyası, insanlıq mərtəbəsi”, “Ölüm və mən” adlı bölmələrdən ibarət olan birinci monoqrafiya 250 ədəbiyyatdan – dini, tarixi və mədəni qaynaqlardan istifadə edilməklə ərsəyə gətirilib. İki bölüm, on altı paraqrafdan ibarət olan “Kitabi-Dədə Qorqud” və Naxçıvan:qarşılaşdırmalı etnoqrafik motivlər” adlı monoqrafiyanın yazılması zamanı isə çox nadir tədqiqat əsərlərindən, eyni zamanda dastanın müxtəlif nüsxələrindən və nəşrlərindən istifadə edilib, xeyli sayda yeni etnoqrafik materiallar tədqiqata cəlb olunub.

Təqdimat mərasimində çıxış edən institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev, institutun elmi katibi, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov, elmi işçi Elnur Kəlbizadə kitabların elmi əhəmiyyəti ilə yanaşı, həm də praktik və tərbiyəvi əhəmiyyətə malik olduğunu qeyd edib, müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonda çıxış edən müəllif yaradıcılığına verilən dəyərə görə minnətdarlığını bildirib.

**Xəbərlər şöbəsi**

## Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının həkim briqadası Ordubad rayonunda əhalini tibbi müayinədən keçirib



Muxtar respublikada müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadalarının mütəmadi olaraq muxtar respublikaya gəlməsi də aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinə hərtərəfli şərait yaradır.

Hər il olduğu kimi, bu il də Bakı şəhərində yerləşən Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının 27 nəfərdən ibarət həkim briqadası dekabrın 23-26-da Ordubad Rayon Mərkəzi Xəstəxanasında əhalini tibbi müayinədən keçirmişdir. Müasir tibbi avadanlıqlarla təmin olunmuş xəstəxanada həkimlər üçün lazımi şərait yaradılmışdır. Xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə yüksəkixtisaslı həkimlər aksiya müddətində 1310 rayon sakinini müayinə etmiş, 28 xəstədə müxtəlif cərrahi əməliyyatlar aparmışlar.

# 2016-cı ilin quruculuq ərməğanları
## Müasir təhsil ocaqları


Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey


Naxçıvan Dövlət Texniki Kolleci


Culfa rayonunun Saltaq kənd tam orta məktəbi


Ordubad Texniki Peşə və Sürücülük Məktəbi


Babək rayonunun Məzrə kənd tam orta məktəbi


Şərur rayonunun Oğlanqala kənd tam orta məktəbi


Şahbuz rayonunun Daylaqlı kənd tam orta məktəbi

*“Sidqinin Vətənimizə etdiyi qulluğun qədrini bilməkdən ötrü lazımdır müqabilə etmək camaatımızın savad və maarif aləmində olan indiki əhvali ilə on il bundan əqdəm halətini. Tərəqqi çox artıq görünür və əgər söyləsək ki, bu tərəqqinin onda doqquzuna bais məhz Sidqidir, insafdan və həqiqətdən bilmərrə uzaq olmaz”.*


Culfa rayonunun Gülüstan kənd tam orta məktəbi

*Bu sözləri görkəmli ədibimiz Cəlil Məmmədquluzadə deyib. O Mirzə Cəlil ki bütün ömrünü xalqın maariflənməsinə həsr etmişdi.*

*Bəli, o zamanlar uşaqların təhsil alması yükü ayrı-ayrı maarif fədailərinin çiyinlərində idi. Onlar da canla-başla üzərlərinə düşən vəzifənin öhdəsindən gəlirdilər. Onlar bu yolda çox cəfalara qatlaşsalar da, o zaman hökumətin bu işə o qədər də maraqlı olmaması çox çətinliklər törədirdi. Hətta vəziyyət o qədər pis idi ki, uşaqlara dərs keçməyə nə məktəb vardı, nə də kiçik bir otaq. Bütün bunlar XIX əsrin sonlarının, XX əsrin əvvəllərinin acı gerçəklikləri idi.*

*Bəs sonralar nə oldu? Sovetlər Birliyi dönəmində bu sahədə dönüş yaradıldı, Azərbaycanda yeni məktəb binaları tikildi. Ancaq bu binalar plan doldurmaq xatirinə tikildiyindən tez bir zamanda istismara yararsız hala gəldilər. Bu məktəblərin bir çoxu hələ də əsrin əvvəllərindəki kimi kömürlə isidilir, hər il təmir olunmasına baxmayaraq, necə deyərlər, əl dəyməmiş uçulub-tökülürdü. Kəndlərdə məktəblərin keyfiyyətli fəaliyyəti barədə isə söhbət belə gedə bilməzdi.*

*Ancaq ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bu sahədə çox şeylər dəyişdi. Təhsilin inkişafının əsas vəzifələrdən biri kimi qarşıya qoyulduğu Naxçıvanda da yüzlərlə təhsil müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verildi. İndi ən ucqar dağ kəndində tikilən məktəb binası ilə Naxçıvan şəhərində inşa olunan təhsil ocağı arasında heç bir fərq yoxdur. Harada yerləşməsindən, şagird sayının az və ya çox olmasından asılı olmayaraq, hər bir məktəb ən müasir texnologiyalarla, fənn kabinələri və laboratoriyalarla, kitabxanalarla təchiz edilib. Bütün bu görülən işlər xalqın sabahına göstərilən qayğının ifadəsidir. Bu qayğının qədrini-qiymətini bilmək üçün isə dahi Mirzə Cəlilin dediyi kimi, camaatımızın savad və maarif aləmində olan indiki əhvali ilə on il bundan əqdəm halətini qarşılaşdırmaq lazımdır. O zaman görəcəyik ki, tərəqqi bütün çalarlarıyla xüsusi diqqət çəkir və bu inkişafın səbəbi ardıcıl olaraq göstərilən dövlət qayğısı və muxtar respublika rəhbərinin misilsiz xidmətləridir.*

*Məhəmməd Tağı Sidqi, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə və onlar kimilərin əsrinin üzərindən uzun illər keçdikdən sonra xalq onların böyüklüyü və uzaqgörənliyi, Vətən təəssübkeşliyi, mövhumatla barışmazlığı, dönməz iradəsi, fədakarlığı qarşısında heyran qaldı. Onların xalqı yolunda misilsiz xidmətləri unudulmadı, əbədi yaddaşlara həkk edildi. Bu gün ölkəmizin çiçəklənməsi, xalqımızın maariflənməsi uğrunda çalışan hər bir Vətən oğlu unudulmaz, əbədiyaşar olacaq.*

**Səbuhi HÜSEYNOV**

## Xüsusi istedada malik gənclər və yeniyetmələrin konserti olub

***Konsertdən əvvəl aparıcı bildirib ki, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd olunması ümummilli liderimiz Heydər Əliyevin xalqımızın tarixi taleyi ilə bağlı qəbul etdiyi mühüm qərarlardan biridir.***

1991-ci il dekabrın 16-da ümummilli liderimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilən “31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərara əsasən, 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada kütləvi tədbirlərlə qeyd olunub. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram sonrakı dövrlərdə bu sahədə



həyata keçirilən tədbirlərin kütləvi xarakter almasında, xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynayıb.

Naxçıvan Dövlət Uşaq Filarmoniyasının solistləri Kənan Əkbərov və Səfər Cəfərov “Heyratı” ritmik muğamını ifa ediblər. Sonra Naxçıvan Dövlət Uşaq Filarmoniyasının solisti Fuad Məmiyev Polad Bülbüloğlunun “İlk görüşdən gəlirəm” mahnısını səsləndirib. Şahbuz rayonunun Kolanı Kənd Uşaq Musiqi Məktəbinin xanəndəlik ixtisası üzrə III sinif şagirdi, bu il muxtar respublikamızda keçirilən xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsinin iştirakçısı Təyyar Mədətlinin oxuduğu “Qarabağ” şikəstəsi alqışlarla qarşılanıb. Onların ifasını Naxçıvan Dövlət Filarmoniyasının xalq çalğı alətləri ansamblı müşayiət edib.

Naxçıvan Musiqi Kollecinin istedadlı tələbələrinin çıxışları da maraqla qarşılanıb. Bir saatdan artıq davam edən konsert Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbinin nağaraçalanlar ansamblının ifa etdiyi “Azərbaycan ritmləri” ilə başa çatıb.

**Əli RZAYEV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 975